**Azərbaycan Respublikası**
**Xarici İşlər Nazirliyi**

Haraya: **TƏMİMİ (Baş konsulluqlar istisna olmaqla)**

Göndərilmə nömrəsi: S/14-34041/14/15 Tarix: 08.12.15

Sənəd necə göndərilir: **El. Poçt**

Səhifələrin sayı: **1**

Əlavə olunur:

Əlavə olunur:

Məhdudluğu qrifi: **Adi**

Təciliiyi: **Təcili**

Vacibliyi: **Vacib**

Hörmətli cənab Səfir, Müvəqqəti İşlər Vəkili,

Xarici dövlətin öz nümayəndəsini Azərbaycan Respublikasında səfir, baş konsul və fəxri konsul təyin etmək niyyətinə dair razılıq məktubu (aqremanı) Xarici İşlər Nazirliyinə daxil olduqdan sonra, bir qayda olaraq, Dövlət Protokolu İdarəsi tərəfindən Azərbaycan Respublikasının aqreman göndərən ölkədə akkreditə olunmuş diplomatik nümayəndəliyinə həmin şəxs barədə ətraflı məlumat əldə etmək məqsədilə sorğu göndərilir. Təəssüf ki, bəzi diplomatik nümayəndəliklərimiz uzun müddətdən sonra həmin şəxsin yalnız tərcümeyi-hallını göndərməklə kifayətlənir, bu isə sorğunun məqsədini tam təmin etmir.

Qeyd edilənləri nəzərə alaraq, tərəfimizdən göndərilən sorğuya cavab məktubunda aqremanı istənilən şəxs barədə rəsmi və qeyri-rəsmi (onun siyasi və ictimai fəaliyyəti, ailəsi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə yanaşması, təmsil etdiyi ölkədə fəaliyyət göstərən erməni icması ilə əlaqələri və faydalı saydığınız digər məlumatların) əks olunmasını, habelə sorğunun əməli surətdə (14 iş günü ərzində) cavablandırılmasını xahiş edirik.

Hörmətlə,

Dövlət Protokolu İdarəsinin
rəisi, səfir — Pərvin Mirzəzadə

Rəis müavini — Fuad Mustafayev